

# Şəhid Səməndər Vahidin şəhadətə ucaldığı gündən 3 il ötür

**2023-cü il oktyabrın 30-da torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizdən birinin - Səməndər Vahid oğlu İsmayılzadənin şəhadətə ucaldığı günün üç ili tamam oldu.**



Şəhidin ildönümü mərasimində Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, Milli Məclisin deputatları Aydın Hüseynov və Səbinə Xasayeva, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, rayon icra hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, şəhidin ailə üzvləri, qazilər və ictimaiyyətin nümayəndələri iştirak etdilər. Tədbirdə şəhidin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra isə məzarı üzərinə gül dəstələri qoyulub.

Anım mərasimində rayonun rəhbərliyi şəhid ailəsinin üzvləri ilə söhbət emiş, şəhidlərimizin əbədi ehtirama layiq olduğunu, onların ailələrinə bundan sonra da dövlət tərəfindən hər cür dəstək göstəriləcəyi bildirilmişdir. Şəhid ailələri Vətən müharibəsi iştirakçıları ilə bağlı dövlətimizin mühüm tədbirlər gördüyünu razılıqla qarşılamış, bu diqqət və qayğıya görə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci Vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıq ifadə etmişlər.

**Qeyd edək ki, Şəhid Səməndər Vahid oğlu İsmayılzadə 1990-cı il avqustun 25-də Yevlax şəhərində anadan olmuşdur. O, ana babasının adını daşıyırdı, atası Vahid İsmayılovun peşəsini davam etdirmək arzusunda idi. Onun atası baş leytenant Vahid İsmayılov Birinci Qarabağ müharibəsində yaralanmış ikinci qrup əlil idi və 2018-ci ildə dünyasını dəyişmişdi.**

Səməndər 1996-cı ildə Səməd Vurğun adına Yevlax şəhər 5 saylı tam orta məktəbin I sinifinə getmiş, 2007-ci ildə həmin məktəbi bitirmiş, bir müddət diş texniki kimi çalışmışdır. Lakin gözünü açandan evdə atasını hərbiçi görən Səməndərin bu sənətə çox böyük həvəsi vardı. Nəhayət, o öz yolunu seçərək hərbiçi olmaq qərarına gəlir, əvvəlcə 2016-cı ildə Azərbaycan Silahlı Qüvvlərinin Təlim-Tədris Mərkəzində fəaliyyət göstərən komandir kursunu bitirir və gizir hazırlığı kursunu bitirmə haqqında sertifikat alır.

Azərbaycan Ordusunun giziri Səməndər İsmayılzadə 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ Vətən Müharibəsi başlanan zaman döyüşə ilk atılan hərbiçilərdən biri oldu. O, Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün aparılan hərbi əməliyyatlar zamanı Cəbrayılın, Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, 2020-ci il oktyabrın 28-də Füzuli döyüşləri zamanı snayper gülləsi ilə aldığı yaradan şəhid olmuş və Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki Şəhidlər məzarlığında torpağa tapşırılmışdır.

Cəbrayıl, Xocavənd və Füzuli rayonarının işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Səməndar İsmayılzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azadlığı uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə","Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir. Subay, ailənin tək oğlu, iki bacının bir qardaşı idi.

**Allah rəhmət eləsin!**

**Vüqar MUSAYEV**